# Şövqi Ağayevin məktəblilərdə mədəni vərdiş və adətlərin tərbiyəsi barədə fikirləri

**Aysel Əmrahova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** r.aysel91@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. Ə.T. Baxşəliyev,
psixol.ü.f.d. S.N. Heydərova

**Açar sözlər:** Azərbaycanda psixologiya elmi, təlim psixologiyası, uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi, məktəblilərin və tələbələrin nəzəri bilikləri

**Ключевые слова:** психология в Азербайджане, психология обучения, культурные привычки и воспитание детей, теоретические знания школьников и студентов

**Key words:** psychology in Azerbaijan, training psychology, cultural habits and upbringing of children, theoretical knowledge of schoolchildren and students

XX əsrdə Azərbaycanda aparılmış psixoloji tədqiqatların çoxu təhsilin inkişafı ilə bağlı olmuşdur.

Psixoloqlarımız bütün yaş dövrlərində məktəblilərin mənimsəmə imkanlarını, təlimə maraq və meyillərini, təlim materiallarının yadda saxlanılmasının qanunauyğunluqlarını, müəllim-şagird münasibətlərini və digər problemləri öyrənmiş və bununla da təhsilin inkişafına xeyli kömək göstərmişlər. Bu psixoloqlar içərisində prof. Ş.S. Ağayevin özünün xüsusi yeri vardır.

Ş.S. Ağayev yaradıcılığının əsas hissəsini təlim psixologiyasının müxtəlif problemlərinin öyrənilməsi təşkil edir. O, respublikamızın dövrü mətbuatında müntəzəm çıxış edir, təlimin müxtəlif psixoloji problemlərinə aid müəllimlərə tövsiyə verirdi

"Təlim prosesində siqnal sistemlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri", "Dərsdə marağın təşkili və inkişaf etdirilməsi", "Təlim prosesində həndəsi məfhumların mənimsənilməsi haqqında", "Dərsdə diqqətin təşkili və tərbiyəsi", "Şagirdlərdə ədəbi yaradıcılıq və qabiliyyətlərin inkişaf etdirilməsi haqqında", "Uşaq psixologiyası məsələlərinə dair", "Ailədə uşaqların nitqinin inkişaf etdirilməsi", "Gənclər arasında psixoloji-pedaqoji təbliğat" adlı əsər və məqalələri buna misal göstərmək olar. Bu elmi-kütləvi əsərlərlə yanaşı Ş. Ağayev daha sanballı tədqiqatlar aparmış və 1950-ci ildən başlayaraq eksperimental psixologiyanın inkişafında öz sözünü demiş, "Psixologiya" və "Yaş və pedaqoji psixologiya" dərsliklərinin hazırlanmasında yaxından iştirak etmişdir.

Aydındır ki, təlim prosesində qavrayışın böyük rolu vardır. Problemin aktuallığını nəzərə alan professor Şövqi Ağayev ilk dəfə olaraq ibtidai məktəbdə qavrayışın xüsusiyyətlərini ətraflı tədqiqata cəlb etmişdir. "Fiziki məqsədin xarakterindən asılı olaraq görmə qavrayışının dinamikası" mövzusunda yazılmış dissertasiyasında Ş. Ağayev qavrayış probleminin tədqiqi sahəsində görkəmli xarici psixoloqların rəhbərliyi altında aparılan tədqiqatları təhlil etmişdir. O, K.D. Uşinski və Y.A. Komenskinin əsərlərində qavrayış probleminin qoyuluşunu nəzərdən keçirmiş və oradakı dəyərli fikirləri şərh etmişdir. Bu tədqiqat təlim üçün çox əhəmiyyətli nəticələr – qavrayışın fikri məqsədin xarakterindən asılığını eksperimental şəkildə əsaslandıran təkliflər bilavasitə təlimi yaxşılaşdırmağa yönəlmişdir.

Məktəblilərin və tələbələrin nəzəri bilikləri və onlarla bağlı bacarıq və vərdişləri

mənimsəmələrinə yönəlmiş fəaliyyət növlərindən biri aparıcı fəaliyyətləridir. Yaşlı adamlarda təlim özünütəhsil xarakteri daşıya bilər. Təlim insanın fəaliyyət və davranışını bəşəriyyətin ictimai təcrübəsini mənimsəməsinə yönəldən fəal bir prosesdir. Təlim fəaliyyəti təkcə məktəblilərdə və tələbələrdə bilik, bacarıq və vərdişlərin formalaşmasını təmin etməklə kifayətlənmir. Bu prosesdə onlarda psixi inkişafa, şəxsiyyətin formalaşmasına əsaslı təsir göstərir. Məhz buna görə də təlim fəaliyyətinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, fərdin birbaşa psixi inkişafi vasitəsi kimi həyata keçirilir.

Müəllif Ş.S.Ağayev "Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi" kitabında valideynlər tərəfindən uşaqlarda mədəni vərdiş və adətlərin formalaşdırılması zərurətindən bəhs edir. Çünki insanların gündəlik yaşayışında mədəni vərdiş və adətlər çox böyük yer tutur.

İnsan öz həyat və fəaliyyəti zamanı müxtəlif hərəkət və işləri icra edir. Bunlardan bəziləri qeyri-ixtiyari, bəziləri isə ixtiyari şəkildə baş verir.

Qeyri-ixtiyari hərəkətlər düşünülmüş, şüurlu şəkildə deyil, ya tamamilə dərk olunmayan və ya bir o qədər də dərk edilməyən təhriklərin təsiri altında baş verir. Bu cür hərəkətlər adətən impulsiv xarakter daşıyır. Onların dəqiq planı olmur. Psixologiyada qeyri-ixtiyari hərəkətlərə insanın qorxu, çaşqınlıq, heyrət, affekt halında olan və s. hərəkətləri aid edirlər.

İxtiyari hərəkətlər isə məqsədlə bağlı, məqsədəyönəlmiş hərəkətlərdir. Bu cür hərəkətləri yerinə yetirərkən insan öz məqsədini həyata keçirmək üçün lazım olan əməliyyatları əvvəlcədən təsəvvür edir. Bu cür hərəkətlər iradi xarakter daşıyır. Bu zaman insan qarşısına çıxan maneələri aradan qaldırmalı olur.

Prof. Ş.S. Ağayev "Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi" kitabında qeyd edir ki, insanın həyatında mühüm rol oynayan bu vərdişlərin bir çoxu uzun müddət təkrar olunduqda adətə çevrilə bilər. Adətləri də vərdişlər kimi bir gərginlik sərf etmədən, bir növ avtomatik şəkildə icra edir. Lakin adətlərin vərdişlərdən fərqi vardır. Adətlər insanın elə iş hərəkətlərinə deyilir ki, bunlar insanın ehtiyacına, tələbatına çevrilmiş olur. Müəyyən şəraitdə, bu iş və hərəkətləri icra etmədən dura bilmir, icra etmədikdə isə insanda daxili bir narazılıq hissi əmələ gəlir. Ona görə insan adət etdiyi işi necə olursa-olsun yerinə yetirməyə çalışır. Məsələn, əgər adam yeməkdən qabaq əlini yumağa adət etmişsə, o hər bir şəraitdə yeməkdən qabaq əlini yumağa çalışacaqdır.

Müəllif şəxsi müşahidələrdən çıxış edərək göstərir ki, mədəni vərdiş və adətlərin bir qismi də əmək fəaliyyəti ilə əlaqədardır.

Əmək sahəsində ən mühüm mədəni adət ümuminin xeyrinə çalışmaq adətidir. Əmək fəaliyyətində vaxta, materiala, adətə qənaət çox mühümdür. Əməklə əlaqədar mədəni vərdiş və adətlərə özünəxidmət adətləri də daxildir. Uşaqları öyrətmək lazımdır ki, öz işlərini başqalarına etdirməsinlər. Hər işi özləri etməyə çalışsalar, öz məsuliyyətlərini başa düşərlər.

Müəllif qeyd edir ki, uşaqları məişət əməyinə adət etdirməklə biz onları belə zərərli adətdən-valideynini, yoldaşlarını öz xeyrinə işlətmək adətindən çəkindiririk.

Mədəni adətlər gündəlik yaşayışda, ev şəraitində öz ifadəsini tapmalıdır. Ev şəraitində uşağın mədəni vərdişləri, hər şeydən əvvəl, bütün ailə üzvləri ilə hörmətcil rəftarda özünü göstərməlidir. Uşaq bütün ailə üzvlərinə hörmət etməlidir. Yeməklə əlaqədar olan mədəni vərdiş və adətləri də uşaqlarda aşılamaq lazımdır.

Professor Şövqi Ağayev kitabda göstərir ki, mədəni vərdiş və adətlərin bir hissəsi qonaqlıqla bağlıdır. Uşaqları kiçik yaşlardan bu cür adətlərə alışdırmaq lazımdır. Əvvəla, dəvət olunmayan yerə getmək mədəniyyətsizlikdir. Müəllif valideynlərə, uşaqlara tövsiyə edir ki, tədbirə dəvət olunduqda gedib-getməməyi qəti bildirmək lazımdır ki, dəvətedən şəxs

nigaran qalmasın.

Valideyn qonaqlıqda şad, gümrah olmaq, özünü hamı ilə bərabər aparmağı da uşaqlarda kiçik yaşlardan aşılamalıdır. Ş.Ağayevin uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi ilə bağlı fikirləri istər müəllim, istərsə də valideynlərə praktik köməklik göstərə bilər

**Məqalənin aktuallığı.** Məqalə XX əsrdə Azərbaycanda təhsil sahəsində aparılmış psixoloji tədqiqatların öyrənilməsi baxımından aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə tanınmış psixoloq Ş.S. Ağayevin yaradıcılığının əsas hissəsi hesab olunan təlim psixologiyası sahəsində onun maraqlı tövsiyələri nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ağayev Ş.S. Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi. Bakı, 1961.
2. Baxşəliyev Ə. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı, 2007.
3. Əliyev R. Psixologiya. Bakı: Nurlan, 2005.
4. Ümumi psixologiya: Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı –YYSQ – 2014.

**А.Амрахова**

## Шовги Агаев о культурной привычки и традиция школьников
## Резюме

В статье рассматривается формировании культурных привычек и традиции у детей. Многие из этих привычек, которые играют важную роль в жизни человека, могут стать обычным явлением, когда неоднократно в течение длительного времени. Но традиции отличаются от привычек. Такие действия человека превращаются в потребность и необходимость. При определенных условиях он не может остановиться, не выполняя работу и действия. Вот почему человек пытается делать все, что ему нравится.

**A.Amrakhova**

## Shovgi Agayev on cultural habits and traditions of schoolchildren
## Summary

The article deals with the formation of cultural habits and traditions in children. Many of these habits that play an important role in a person's life can become a common occurrence when repeatedly for a long time. But traditions differ from habits. Such actions of a person become a need and a necessity. Under certain conditions, he can not stop without performing work and actions. That's why a person tries to do everything he likes.

**Redaksiyaya daxil olub:** 12.01.2017